Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

Federal Department of Economic Affairs FDEA
State Secretariat for Economic Affairs SECO

**Eidgenössisches Institut für Geistiges Eigentum**
**Institut Fédéral de la Propriété Intellectuelle**
**Istituto Federale della Proprietà Intellettuale**
**Swiss Federal Institute of Intellectual Property**

# AZƏRBAYCAN RESPUBLIKASINDA ƏQLI MÜLKIYYƏT HÜQUQLARI

## Dair bələdçi

*Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi*

*Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi*

# Azərbaycanda əqli mülkiyyət hüquqlarına dair bələdçi

## Müqəddimə

Əziz Oxucu!

Son bir neçə ildə Azərbaycan iqtisadiyyatının inkişafında əqli mülkiyyətin rolu əhəmiyyətli dərəcədə artmışdır və əqli mülkiyyət hüquqlarının təminatının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Bu da səbəbsiz deyil: müəlliflik hüququ, əlaqəli hüquqlar, patentlər, əmtəə nişanları hazırda texnologiyaların və cəmiyyətin inkişafında mühüm yer tutur. Bununla yanaşı, əqli mülkiyyət hüquqlarının təminatında problemlər də mövcuddur. Bu problemlərlə mümkün qədər daha az rastlaşmaq üçün əqli mülkiyyət hüquqlarının müdafiə sisteminə bələd olmaq lazımdır.

İndi qarşınızda olan "Azərbaycanda əqli mülkiyyət hüquqları üzrə bələdçi" adlı broşürada əqli mülkiyyət hüquqlarının qorunmasının bir neçə mühüm prinsiplərindən bəhs edilir. "Bələdçi"niz mövzu üzrə bir çox məsələlərin aydın başa düşülməsinə, həmçinin təsəvvürlərdə olan bəzi yanlışlıqların aradan qaldırılmasına kömək edəcəkdir.

QEYD: Əqli mülkiyyət hüquqlarının həyata keçirilməsi və müdafiəsi üzrə İsveçrə-Azərbaycan Layihəsi tərəfindən ingilis, Azərbaycan və rus dillərində nəşr edilmiş "Azərbaycanda əqli mülkiyyət hüquqlarına dair bələdçi" adlı broşüranı pulsuz əldə etmək olar.

*Hazırkı bələdçi Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq nəticəsində hazırlanmışdır Biz, həmçinin, hazırkı bröşüraya verdiyi dəyərli tövhəyə görə Bakı Dövlət Universitetinin müəllimi, Baker & McKenzie hüquq firmasının hüquqşünası və Azərbaycan Respublikasının patent müvəkkili, hüquq elmləri namizədi cənab Gündüz Kərimova (gunduz.karimov@bakernet.com) təşəkkürümüzü bildiririk.*

4

**Əqli mülkiyyət** 6
Yaradıcılığa və yenilikçiliyə olan əqli mülkiyyət hüquqları

**Müəlliflik hüququ və əlaqəli hüquqlar** 11
Elm, ədəbiyyat və incəsənət əsərlərinə olan hüquqlar
İfalara, fonoqramlara və yayım təşkilatlarının verilişlərinə olan hüquqlar

**Müəllif-hüquq qanunvericiliyi çərçivəsində əqli mülkiyyət hüquqlarına baxış** 18

**Sənaye mülkiyyəti hüquqları** 24
**Patentlər**
İxtira müəlliflərinə yardım

**Sənaye nümunələri** 28
Obyektin xarici görünüşü

**Faydalı modellər**
Qurğunun təkmilləşdirilməsi 30

**Əmtəə nişanı, Texnologiya və Patent Axtarışları** 32
Əmtəə nişanları və coğrafi göstəricilər

**Əmtəə nişanları və coğrafi göstəricilər** 33
Məşhur ®

**Şənaye mülkiyyəti hüquqlarına baxış** 36

**Qeyri-ənənəvi əqli mülkiyyət hüquqları** 42
İnteqral sxem topologiyaları
Xüsusi qorunma hüququ ilə qorunan məlumat topluları
Folklor nümunələri

**Əlaqə** 46

# Əqli Mülkiyyət (ƏM)



**Öz yaradıcı ideyalarınıza həyat bəxş edin!**

Hər bir yeni və parlaq ideyaya malik şəxs, bu ideyanı inkişaf etdirməkdə israrlıdırsa və onu praktik baxımdan gerçəkləşdirməyi öz üzərinə götürürsə, bu səmərələşdirici nailiyyəti əqli mülkiyyət kimi qorumağı bacarmalıdır.

Yaradıcı ideyaların və qeyri-maddi aktivlərin xüsusi təbiəti onları asanlıqla köçürmək, mənimsəmək və onlardan qanunsuz istifadə etmək imkanı yaradır.

Əqli mülkiyyət sahəsində qanunlar bu cür hallara qarşı effektiv hüquqi qorunmanı təmin edir.

**Əqli mülkiyyət hüquqlarının spesifik xüsusiyyətləri**

Bütün əmtəə və xidmətlər müvafiq əqli mülkiyyət hüququ ilə qoruna bilən müxtəlif xüsusiyyətlərə malikdir. Proqram təminatı, müxtəlif növ yaradıcılıq topluları, elmi və ədəbi əsərlər, musiqi və incəsənət əsərləri müəlliflik hüququ ilə qorunur. İfalar, fonoqramlar və yayım təşkilatlarının verilişləri əlaqəli hüquqlarla qorunur. Burada qorunan yaradıcılıq nailiyyəti ilə yanaşı texniki-təşkilati xidmətlərin də hüquqi qorunması təmin edilir.

Patentlər əmtəənin əsasında və ya istehsal prosesində olan ixtiranı mühafizə edir. Obyektin unikal forması və ya xarici görünüşü sənaye nümunəsi kimi qorunub saxlanıla bilər. Qeydiyyata alınmış əmtəə nişanı əmtəəni və ya xidməti identifikasiya və reklam edən loqotipi və adı mühafizə edir. Bilavasitə müəlliflik hüququ və sənaye mülkiyyəti hüququ ilə qoruna bilməyən obyektlər qeyri-ənənəvi obyektlər kimi xüsusi qorunma hüququ ilə qorunurlar. Belə obyektlərə inteqral sxem topologiyaları, xüsusi mühafizə hüququ ilə qorunan məlumat topluları və ənənəvi mədəni nümunələr (folklor nümunələri) aiddir.

Bununla yanaşı, haqsız rəqabət və kommersiya sirri ilə qorunan obyektlər də əqli mülkiyyətə daxil edilir.

**Əqli mülkiyyət hüquqları nə deməkdir**

Ümumi mənada əqli mülkiyyət hüquqları obyektiv formada əks olunmuş əqli fəaliyyət nəticələrinə olan hüquqlardır.

**"Əqli mülkiyyət hüquqları"** dedikdə müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərinə, audiovizual əsərlərə, fonoqramlara, ifalara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına və məlumat toplularına, ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə, firma adlarına, əqli fəaliyyətin nəticəsi kimi kommersiya sirrinə aid edilən nou-haulara, həmçinin istehsalat, elmi və ədəbi-bədii sahədə əqli fəaliyyət nəticəsində yaradılan digər obyektlərə olan hüquqlar başa düşülür.

**Əsas məqsədlər aşağıdakılardır:**

• ƏM hüququnun sahibini qorunan əqli mülkiyyətdən və ya tərkibində əqli mülkiyyət hüquqlarının obyekti olan mallardan digər şəxs, o cümlədən rəqib tərəfindən qeyri-qanuni yolla iqtisadi səmərə əldə edilməsinin qarşısını qanunvericilikdə təsbit olunmuş qaydada və vasitələrlə almaq. Bura ƏM hüquqları obyektlərinin istehsalı (hazırlanması) və ya xidmətlərin göstərilməsi, istifadəsi, satışı, ümumi istifadəyə verilməsi (hədiyyə kimi bağışlamaq da daxil olmaqla) və reklam edilməsi daxildir. Hüquq sahibi ona məxsus olan əqli mülkiyyətdən qanunvericiliklə qadağan edilən hallar istisna olmaqla istənilən üsulla və formada istifadə etmək hüququna malikdir.

• Yeni ideyaların yaradılması ilə məşğul olan şirkətlər, tədqiqatçılar, ixtiraçılar və digər şəxslər üçün zəruri informasiya mənbəyi yaratmaq.

• Əmtəə və ya xidmətin peşəkar marketinq işinin həyata keçirilməsi, habelə nüfuzun yüksəldilməsi üçün zəruri hüquqi bazanın olmasını təmin etmək.

**Qorunmanın strategiyası**

Əgər Siz hər hansı məhsula və ya xidmətə münasibətdə öz ideyalarınızı qorumaq istəyirsinizsə, bu zaman qorunmanın strategiyasını müəyyən etməlisiniz. Bunun üçün siz bəzi funda-

mental suallara cavab verməlisiniz:

İxtiralar üçün müdafiə, yoxsa hücum strategiyası seçilməlidir? Nou-haular (texnoloji sirləri) məxfi saxlanılmalı, yoxsa patentləşdirilməlidirmi (bununla da ictimaiyyətə açıqlanmalıdır)?



Qorunma zəruridirmi? Əqli mülkiyyətin qeyri-qanuni istifadəsi faktiki olaraq qaçılmaz sayılırmı? Bunlardan hansını qorumaq vacibdir? İxtira? Əmtəə nişanı? Sənaye nümunəsi? Yoxsa hamısını birlikdə? Onların qorunma yolları hansılardır? Butulkanın unikal forması sənaye nümunəsi və ya irihəcmli (və ya plastik, üçölçülü, məkanı) əmtəə nişanı kimi qoruna bilərmi?

Hüquqların mühafizəsi və müdafiəsi necə müəyyən edilməlidir? Məsələn, hansı növ məhsul və ya xidmət üçün əmtəə nişanı qeydə alınmalıdır?

Hansı ölkələrdə hüquqi qorunmanın və müdafiənin olması zəruri sayılır? Bu, satış və digər üsullarla yayım kanalları, regional və yerli nümayəndələr və ya müəyyən ölkədə hər hansı hüququn üzərində təkidlə durmaq arzusu kimi bir sıra müxtəlif amillərdən asılıdır.

Səmərəli ƏM strategiyasının yaradılması müxtəlif əqli mülkiyyət hüquqlarının kəsişmə nöqtələri haqqında geniş biliklər tələb edir.

**Unutmayın ki**:

Əsər və əlaqəli hüqüqların obyektləri (ifalar, fonoqramlar və yayım təşkilatlarının verilişləri) yarandığı andan qorunur. Buna görə də onların qeydiyyatı məcburi deyil. Lakin qorunmanın və hüquqi müdafiənin daha etibarlı olmasını təmin etmək məqsədilə əsərlərin və əlaqəli hüquqların obyektlərinin Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilməsi tövsiyə olunur.

Əsər və əlaqəli hüquqların obyektləri qeydiyyatdan keçirildikdə müəllifə (hüquq sahibinə) əsərin və əlaqəli hüquqların obyektlərinin qeydiyyatı haqqında şəhadətnamə verilir. Mübahisə yaranan hallarda digər sübutlar olmadıqda, qeydiyyat haqqında şəhadətnamə hüququn prezumpsiyası kimi çıxış edir.

İxtira, sənaye nümunələri və əmtəə nişanlarına hüquqların rəsmiləşdirilməsi zəruridir. Bunun üçün Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə müraciət olunmalıdır.

“Birinci gəl və birinci sənə xidmət göstərilsin”prinsipi - müdafiə hüquqları əmtəə nişanını, ixtiranı və ya sənaye nümunəsini ilk olaraq qeydiyyatdan keçirən şəxsə məxsus olur.

Ödənişlər, patentin alınması üçün ərizələr, mühafizə müddəti və s. üçün yekun müddətlər ilk ərizənin qeydiyyata alındığı tarixdən başlayır. “İlkinlik tarixi” adlandırılan dövr də məhz bu zaman başlayır. Bu müddət ərzində, ərizəçi digər şəxsin ona qarşı yeniliyin edilməsinə (yerli proseduralara uyğunlaşmaq üçün) dair iddiası olmadan da xarici ölkələrdə əmtəə nişanı, patent, eləcə də sənaye nümunələrinin mühafizəsi üçün ərizə ilə müraciət edə bilər.

Əqli mülkiyyət hüquqlarının müdafiəsi ilə bağlı hər hansı mülki məhkəmə çəkişməsində mütəxəssislə məsləhətləşmək zəruridir. Ümumiyyətlə, ilkinlik hüququn mövcudluğunu təsdiq etmək məsələsi işə sədrlik edən hakimin ixtiyarına verilir. Əmtəə nişanları və patentlərə qarşı etiraz bildirmək üçün müəyyən formal prosedur mövcuddur. Əmtəə nişanları üçün daha ilkin əmtəə nişanı hüquqlarının sahibi müəyyən hallarda, xüsusən də biotexnoloji ixtiraların patentləşdirilməsi mümkünlüyünün olub-olmamağı məsələsinə gəldikdə, patentin alınmasından sonra altı ay ərzində öz etirazını bildirmək hüququna malikdir.

Əqli mülkiyyət hüquqlarının obyektlərinin mühafizə müddəti məhduddur. Qorunma müddəti başa çatmış əsərlər və əlaqəli hüquqların obyektləri ictimai varidata keçir. Lakin əmtəə nişanları bu baxımdan istisna sayılır: onlar Azərbaycanda məhdudiyyətsiz olaraq yenilənə bilər.



**Əqli mülkiyyət hüquqları hər bir ölkə üçün spesifik sayılır** (ərazi bütövlüyü prinsipinə müvafiq olaraq): Azərbaycanda qeydiyyata alınan əmtəə nişanı yalnız Azərbaycanın hüdudlarında qorunur. Başqa ölkələrdə qorunma əldə etmək üçün, həmin nişan təkrar qeydiyyata alınmalıdır.

**Bilməlisiniz ki:**

Özəl şirkətlər və qeyri-hökumət təşkilatları tərəfindən aparılan əqli mülkiyyət hüquqlarının reyestrinin və və bununla əlaqədar məlumat bazalarının hüquqi qüvvəsi yoxdur!

İnformasiya reyestrləri və ya kommersiya əmtəə nişanlarının, indeks və ya internet məlumat bazalarında sənaye mülkiyyəti hüquqlarının qeydiyyatını təklif edən bəzi özəl şirkətlər mövcuddur. Lakin Azərbaycanda əqli mülkiyyət hüquqlarının rəsmi qeydiyyatı və dövlət reyestri yalnız Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Müəllif Hüquqları Agentliyi tərəfindən aparılır. Özəl reyestrlərdə və məlumat bazalarındakı qeydiyyat heç bir halda hüquqi qorunma və müdafiə üçün əsas sayılmır.

# Müəlliflik hüququ

**Müəlliflik hüququ nədir?**

"Müəlliflik hüquqları" dedikdə əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan elm, ədəbiyyat və incəsənət əsərlərinə olan hüquqlar başa düşülür.

Müəlliflik hüququ obyektiv mənada əsərlərin yaradılması və istifadəsi ilə bağlı münasibətləri tənzimləyən hüquqi normaların məcmusudur və qorunma aləti kimi çıxış edir, subyektiv mənada isə öz-özlüyündə əsərlərin yaradıcılarına məxsus olan şəxsi (qeyri-əmlak) və əmlak (iqtisadi) hüquqlardır. Bu hüquqlar müstəsna xarakter daşıyır.

Müəlliflik hüququ əsərin formasını qoruyur. Qorunmanın əsas obyekti əsərin özü olduğuna görə onun məzmunu formaya daxil olduğu şəkildə qorunur. Əsər vasitəsi ilə ifadə edilən ideya və ya konsepsiya qorunmur.

Əsər yarandığı andan qorunur və bu, qorunan əsərin təkrarlana bilməməsinin sübutudur və əsərin qorunması qeydiyyatdan asılı deyil. Bununla belə, müəlliflik hüququnun pozulduğu halda onun qorunması və müdafiəsi arasında "körpü" yaratmaq məqsədilə qanunvericilik əsərin qeydiyyatdan keçirilməsinə imkan yaradır.

**Müəlliflik hüququnun əhəmiyyəti nədən ibarətdir?**

Müəlliflik hüququnun böyük mədəni-humanitar əhəmiyyəti vardır, çünki cəmiyyətin götürdüyü xeyir və fayda bu hüquqların tanınmasının başlıca səbəbidir. Müəllif hüquqlarının qorunması mədəni irsin qorunub saxlanmasına, mədəni dəyərlərin cəmiyyətdə geniş yayılmasına və yeni yaradıcılıq nəticələrinin meydana çıxmasına şərait yaradır. Bununla yanaşı, müəlliflik hüququ son illər iqtisadi inkişafın vacib aləti kimi, digər əqli mülkiyyət hüquqları ilə birgə "biliklərə əsaslanan iqtisadiyyatın" amilinə, tərkib hissəsinə və ən vacib qeyri-maddi aktivlərinə çevrilmişdir. Yalnız müəlliflik hüququna əsaslanan sənayenin payı dünya iqtisadiyyatında 7,3 faiz (5 faiz illik artımla) təşkil edir.

**Əsərdən istifadəyə müstəsna hüquqlar kimə məxsusdur?**

Əsərdən hər hansı formada və üsulla istifadəyə müstəsna hüquqlar müəllifə (yəni əsərin yaradıcısına) və ya qanunvericiliyə uyğun olaraq digər hüquq sahibinə (məsələn, əsər xidməti tapşırıq əsasında yaradılmışdırsa və işəgötürənlə müəllif arasındakı müqavilədə başqa hal nəzərdə tutlmamışdırsa işəgötürənə, müəllif vəfat etdikdə onun qanuni vərəsəsinə (vərəsələrinə) və ya qanunvericılıklə müəyyən edilmiş qaydada hüquqların verildiyi şəxsə) məxsusdur.



"Əsərdən istifadəyə müstəsna hüquqlar" dedikdə müəllif və ya əsərə müəlliflik hüququnun digər sahibi tərəfindən aşağıda göstərilən hərəkətlərin həyata keçirilməsi, həyata keçirilməsinə icazə verilməsi, yaxud bu cür hərəkətlərə qadağa qoyulması başa düşülür:

- Sürətçıxarma hüququ: orijinal (ilkin) işin dəyişməsindən asılı olmayaraq işi hər hansı formada reproduksiya etmək (işin surətlərini istehsal etmək) hüququ deməkdir (məs. internet vasitəsi ilə musiqinin MP3 formatında yüklənilmələri kimi).
- Yaymaq hüququ: işin surətlərini təklif etmək, yaymaq və ya hər hansı yolla bazara çıxarmaq hüququ deməkdir.
- Kütləvi nümayiş hüququ: internet kimi kommunikasiya şəbəkəsi vasitəsi ilə ekrandan (monitordan) baxmaq, çap etmək, yükləmək və s. kimi məqsədlər üçün işin ictimaiyyət üçün təqdim etmək hüququ deməkdir.
- Kütləvi ifa: ictimaiyyət qarşısında təqdim etmək, istehsal etmək, yerinə yetirmək (işə salmaq) və ya istənilən digər yolla işin nəzərə çarpan etmək hüququ deməkdir.
- Kütləyə çatdırmaq üçün kabellə kütləvi bildiriş hüququ: radio, televiziya və ya oxşar cihaz tipi vasitəsi ilə işi yayımlamaq hüququ
- Təkrar yayımlamaq hüququ: artıq yayımlanmış işin sonradan, yayım təşkilatının orijinal (ilkin) məlumat daşıyıcısından fərqli olan texniki cihazların (məsələn, kabel televiziyası) köməkliyi ilə ötürülməsi deməkdir.

- Yenidən işləmək hüququ: işin nə vaxt və necə uyğunlaşdırılacağı, habelə onun yeni işin (yəni tərcümələr kimi törəmə işlər) yaradılmasında üçün əsas kimi istifadə edilə bilməsinə dair qərar vermək hüququ deməkdir.
- Tərcümə etmək hüququ: istənilən dilə tərcümə etmək hüququ deməkdir.
- Müstəsna hüquq sahibləri onlara məxsus olan əsərdən qeyri-qanuni istifadə hallarının, o cümlədən əsərin icazəsiz surətinin çıxarılmasının qarşısının alınması üçün texniki müdafiə vasitələrindən istifadə edə bilərlər.



**Müəlliflik hüququnun obyekti olan əsərlər hansılardır?**

- Müəllif hüquqları baxımından "işlər" fərdi təbiətə malik olan əsərlər, xüsusən də aşağıdakılardır:
- İstənilən növ ədəbi əsərlər, o cümlədən romanlar, elmi traktatlar, jurnal məqalələri və marketinq kitabçaları.
- Musiqili əsərlər və digər akustik əsərlər.
- Təsviri incəsənətin (rəssamlıq, heykəltəraşlıq, qrafika sənəti) və tətbiqi layihələr (istifadə edilən bədii incəsənət obyektləri).
- Texniki çertyoj planları, xəritələr və ya üçölçülü modellər kimi elmi və ya texniki məzmunlu işlər.
- Arxitektura işləri.
- Fotoşəkillər və plyonkalar kimi vizual və audiovizual işlər.
- Rəqs quruluşları və pantomima işləri.
- Törəmə işlər (tərcümələr, uyğunlaşdırmalar, annotasiyalar, analizlər, xülasələr, icmallar və s.).
- Toplular (ensiklopediyalar, ontologiyalar, məlumat bazaları)

**Proqram təminatının qorunması**

Kompyuter proqramları ədəbi əsərlər kimi qorunur. Buna baxmayaraq, perfokart sistemləri və uçot sistemləri, proqram təminatının əsasını formalaşdıran alqoritmlər kimi proqram dilləri və ya problemin həlli prinsipləri müdafiə olunmur.

Müəlliflik hüququ ideyalara, metodlara, proseslərə, sistemlərə, üsullara, konsepsiyalara, kəşflərə, riyazi anlayışlara və ya faktlara şamil edilmir.



**Müəlliflik hüququnun obyekti olmayan əsərlər hansılardır?**

- Rəsmi sənədlər (qanunlar, məhkəmə qərarları, qanunvericilik, inzibati və məhkəmə xarakterli digər mətnlər), həmçinin onların rəsmi tərcümələri;
- Dövlət rəmzləri və nişanları (bayraqlar, gerblər, himnlər, ordenlər, pul nişanları, digər dövlət rəmzləri və nişanları);
- Xalq yaradıcılığı (folklor) nümunələri;
- Günün yenilikləri, müxtəlif hadisə və faktlar barədə informasiya xarakterli məlumatlar.

**Müəlliflik hüququnun qüvvədə olma müddəti**

Müəlliflik hüququ əsər yaradıldığı andan yaranır və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallar istisna olmaqla müəllifin bütün həyatı boyu və onun ölümündən sonra 70 il müddətində qüvvədə qalır.

Müəlliflik hüquqlarının qüvvədə olduğu müddətdə əsərə müstəsna müəlliflik hüquqlarının sahibləri onu Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirə bilərlər.

**Əlaqəli hüquqlar nədir?**

Əlaqəli hüquqlar müəlliflik hüquqları ilə təmasda olan, yəni müəlliflik hüquqlarından törəmə hüquqlardır və qorunma müddəti nisbətən məhduddur: əlaqəli hüquqlar 50 il qorunur.

Əlaqəli hüquqlar aşağıdakılara şamil olunur:

- ifaçılara (artistlərə və musiqiçilərə ifalarına münasibətdə);
- fonoqram istehsalçılarına (audio-video disklərində səsyazmalarına münasibətdə);
- efir yayımı təşkilatlarına (onların radio və televiziya verilişlərinə münasibətdə).
- əlaqəli hüquqların əsas xüsusiyyəti müəlliflik hüququndan törəməsi və ondan asılılığıdır, bu səbəbdən əlaqəli hüquqlar müəlliflik hüququna riayət etməklə tanınır.
- əlaqəli hüquqların yaranması və həyata keçirilməsi üçün hər hansı formal qayda tələb olunmur.
- fonoqram istehsalçısının və (və ya) ifaçının öz hüquqlarını bildirməsi üçün əlaqəli hüquqları qoruma nişanından istifadə etmək hüququ vardır; bu nişan fonoqramın hər nüsxəsində və (və ya) onun içinə
- qoyulduğu qutuda göstərilir və üç ünsürdən ibarət olur:
- dairəyə alınmış p latın hərfi - ℗;
- əlaqəli hüquqların sahibinin adı;

**Beynəlxalq müəllif-hüquq qanunvericiliyi**

Hər bir qanunvericilik sistemi əsas etibarı ilə milli olur. İnzibati idarəçiliyi Müəllif Hüquqları Agentliyi tərəfindən həyata keçirilən və əqli mülkiyyətin ən mühüm sahəsi olan müəlliflik hüququ və əlaqəli hüquqlarla bağlı məsələləri tənzimləyən "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu qorunmanı yalnız milli səviyyədə təmin edir. Buna baxmayaraq, müəllif hüquqlarının qorunmasını beynəlxalq səviyyədə tənzimləyən bir sıra beynəlxalq konvensiyalar mövcuddur (məs. "Ədəbi və bədii

əsərlərin mühafizəsi haqqında Bern Konvensiyası, "İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının mühafizəsi haqqında" Roma Konvensiyası və s.).

**Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar (bunları bəzən "yığım cəmiyyətləri" adlandırırlar)**



"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəlliflər və əlaqəli hüquqların sahibləri özlərinin əmlak hüquqlarını fərdi qaydada həyata keçirə bilmədikdə (kütləvi ifa, o cümlədən radio və televiziyada; mexaniki, maqnit və s. yazılma üsulu ilə surətçıxarma, reprosurətçıxarma və başqa hallar) onların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradıla bilər. Bu cür təşkilatlar müəlliflər və əlaqəli hüquqların sahibləri tərəfindən yaradılır.

Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların kommersiya fəaliyyəti ilə məşğul ola bilməzlər.
Belə təşkilatlara əmlak hüquqlarını kollektiv əsasda idarə etmək səlahiyyətini bilavasitə müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri könüllü olaraq yazılı müqavilələr əsasında və ya bu təşkilatlara üzv olmaqla verirlər.

Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar Müəllif Hüquqları Agentliyində akkreditasiyadan keçirilir keçirilir və müəllif-hüquq qanunvericiliyi baxımından onların fəaliyyətinə Agentlik tərəfindən nəzarət olunur.

**Unutmayın ki:**

Müəllifin və ya müəlliflik hüquqlarının digər sahibinin razılığı olmadan və müəllif qonorarı ödəmədən fiziki şəxsin qanuni dərc edilmiş əsərdən, gəlir götürmədən ancaq şəxsi məqsədlər üçün bir nüsxə hazırlanmasına yol verilir. Lakin memarlıq əsərinin bina və ona oxşar tikili formasında surətinin, həmçinin məlumat bazalarının və ya onların əsas hissələrinin surətinin, kompüter proqramlarının (kompyuter proqramından istifadə ilə bağlı qanunvericilikdə nəzərdə tutulan hallar

istisna olmaqla), kitabların (bütövlükdə), not mətnlərinin və təsviri sənət əsərlərinin orijinallarının reprosurətinin və ya müəllifin maraqlarını əsassız olaraq məhdudlaşdıran hər hansı surətçıxarmaya icazə verilmir.

Şəxsi məqsədlər üçün audiovizual əsərin və fonoqramın gəlir götürmədən surəti çıxarılarkən, audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovizual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonoqram istehsalçılarının qonorar almaq hüququ vardır.

Müstəsna müəlliflik hüquqlarının sahibinin əsərə öz hüquqlarını bildirməsi üçün əsərin hər bir nüsxəsində göstərilən üç ünsürdən istifadə etmək hüququ vardır: dairəyə alınmış © işarəsi, hüquq sahibinin adı və əsərin ilk dəfə dərc edildiyi il.

Tərcümələr, ədəbi əsərin kinofilm şəklində ekranlaşdırılması və ya musiqili aranjeman kimi törəmə əsərlər (məs. hər hansı məşhur əsərin digər ifaçı tərəfindən yeni üslubda ifa edilməsi) də müəlliflik hüququ ilə qorunur.

Sərbəst giriş üçün daim açıq olan yerlərdə qoyulmuş memarlıq, fotoqrafiya, təsviri sənət əsərlərinin surətinin çıxarılmasına (məs. heykəlin fotoşəklinin çəkilməsi) icazə verilir.

Əgər proqram təminatı birdən çox kompyuterdə istifadə edilirsə, bu zaman hər bir kompyuter üçün lisenziya tələb olunur.

Qanuni dərc edilmiş əsərlərdən qısa parçaları elmi, tədris və digər məqsədlər üçün sitat şəklində istifadə etməyə, habelə məhkəmə və inzibati işlərin aparılması üçün lazım olan həcmdə əsərlərin surətinin çıxarılmasına icazə verilir. Bu halda müəllifin razılığı tələb olunmur və qonorar ödənilmir. Lakin istifadə zamanı əsərin müəllifinin adı və götürülmə mənbəyi mütləq göstərilməlidir.

## Müəllif-hüquq qanunvericiliyi çərçivəsində əqli mükiyyət hüquqlarına baxış



| Nə qorunmalıdır? | Əsər | İfa, fonoqram və yayım təşkilatının verilişi |
|---|---|---|
| **Hansı yolla qorunmalıdır?** | ● Əsərlər könüllü olaraq Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilir | ● İfalar, fonoqramlar və yayım təşkilatlarının verilişləri könüllü olaraq Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilir |
| **Minimum tələblər** | ● Orijinal olmalıdır;<br>● Yaradıcılıq fəaliyyətinin nəticəsi olmalıdır;<br>Obyektiv formada mövcud olmalıdır | Obyektiv formada mövcud olmalıdır<br>Qeyd: Əlaqəli hüquqların digər subyektlərindən fərqli olaraq ifaçı şəxsi (qeyri-əmlak) hüquqlarına malikdir. Onun ad hüququ və şöhrətinə hörmət edilməsi hüququ qanunla qorunur. Bu səbəbdən ifa yaradıcılıq fəaliyyətinin nəticəsi kimi qeydiyyatdan keçirilə bilər. |

| İnteqral sxem topologiyası | Məlumat toplusu | Folklor nümunəsi |
|---|---|---|
| ● İnteqral sxem topologiyaları könüllü olaraq Müəllif Hüquqları Agentliyində qey-diyyatdan keçirilir | ● Məlumat topluları könüllü olaraq Müəllif Hüquqları Agentliyində qeydi-yyatdan keçirilir | ● *Qeyd |
| ● Orijinal olmalıdır<br>● Yaradıcılıq fəaliyyətinin nəticəsi olmalıdır. | ● Müəlliflik hüququ ilə qorunan məlumat toplusu yaradıcılıq fəaliyyətinin nəticəsi kimi orinal olmalıdır;<br>● Xüsusi qorunma hüququ ilə qo-runan məlumat toplusunun qorunma meyarı kimi maliyyə vəsaitləri, vaxt və enerji məsrəfləri şəklində əhəmiyyətli sərmayə qoyuluşu əsas götürülür;<br>● Obyektiv formada mövcud olmalıdır | ● Folklor nümunələrindən istifadə olunarkən onların təbii mahiyyətinə və məzmununa xələl gətirilməməlidir. |

**Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Qanunun müddəalarına uyğun olaraq Müəllif Hüquqları Agentliyi tərəfindən folklor nümunələrinin toplanması, qeydə alınması, sistemləşdirilməsi və sənədləşdirilməsi ilə bağlı görülən tədbirlər çərçivəsində elektron məlumat bazası yaradılmışdır. Bu iş davam etdirilir.*

| Nə qorunmalıdır? | Əsər | İfa, fonoqram və yayım təşkilatının verilişi |
|---|---|---|
| **İstisnalar hansılardır?** | ● şəxsi məqsədlər üçün;<br>● məhkəmə və inzibati məqsədlər üçün və qanunvericiliklə nəzərdə tutulan digər məqsədlər üçün. | ● şəxsi məqsədlər üçün ;<br>● elmi, tədqiqat, polemika və informasiya məqsədi üçün;<br>● qısa parçaların cari hadisələr haqqında icmala daxil edilməsi üçün və qanunvericiliklə nəzərdə tutulan digər məqsədlər üçün. |
| **Qorunma müddəti** | maksimum 70 il | maksimum 50 il |
| **Qorunma göstəriciləri** | ● dairəyə alınmış C latın hərfi; ©-<br>● müstəsna müəlliflik hüquqlarının sahibinin adı;<br>● əsərin ilk dəfə dərc edildiyi il. | ● dairəyə alınmış “R” latın hərfi “®”;<br>● əlaqəli hüquqlarının sahibinin adı;<br>● fonoqramın ilk dəfə dərc edildiyi il. |

| İnteqral sxem topologiyası | Məlumat toplusu | Folklor nümunəsi |
|---|---|---|
| ● qazanc götürmədən şəxsi, həmçinin qiymətləndirmə, təhlil, tədqiqat, yaxud tədris məqsədləri üçün;<br>● qanuni yolla təsərrüfat dövriyyəsinə buraxılmış qorunan topologiyalı inteqral sxeminin sayılması məqsədləri üçün. | ● təhsil prosesində illüstrasiya və ya elmi–tədqiqat işlərində istifadə üçün;<br>● içtimai təhlükəsizlik məqsədi ilə, yaxud inzibati və məhkəmə araşdırmaları zamanı istifadə üçün. | Azərbaycan Respublikasının ərazisində istifadə formaları sərbəstdir. Xarici ölkələrdə Azərbaycan folkloru nümunələrindən istifadə üçün Müəllif Hüquqları Agentliyinin razılığı tələb olunur (lakin folklorun qorunması ilə bağlı beynəlxalq alət hələlik qəbul edilməmişdir). |
| maksimum 10 il | maksimum 15 il | müddətsiz qorunur |
| ● ”™” çap hərfi ;<br>● topologiyadan istifadəyə müstəsna hüquqların qorunma müddətinin başlanğıc tarixi;<br>● hüquq sahibinin soyadı və adı. | ● dairəyə alınmış C latın hərfi ©;<br>● məlumat toplusuna müstəsna hüquqlarının sahibinin adı;<br>● məlumat toplusunun ilk dəfə dərc edildiyi il. | |

| Nə qorunmalıdır? | Əsər | İfa, fonoqram və yayım təşkilatının verilişi |
|---|---|---|
| Qeydiyyat üçün rüsumlar(AZN) | ● əsərin qeydiyyatı üçün - 5 AZN;<br><br>● əsərdən istifadə ilə bağlı hüquqların (əmlak hüquqlarının) tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatı üçün - 7 AZN | ● əlaqəli hüquqlar obyektinin qeydiyyatı üçün - 5 AZN;<br>● əlaqəli hüquqlar obyektindən istifadə ilə bağlı hüquqların (əmlak hüquqlarının) tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatı üçün - 7 AZN |

| İnteqral sxem topologiyası | Məlumat toplusu | Folklor nümunəsi |
| --- | --- | --- |
| ● topologiyaya əmlak hüququnun vərəsəlik üzrə keçməsinin qeydiyyatı və qeydiyyat haqqında şəhadətnamənin verilməsi üçün-5 AZN;<br>● topologiyaya əmlak hüquqlarının verilməsi haqqında müqavilənin qeydiyyatı və qeydiyyat haqqında şəhadətnamənin verilməsi üçün-7 AZN | ● məlumat toplusunun rəsmi qeydiyyatı üçün-5 AZN;<br>● məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin rəsmi qeydiyyatı üçün-7 AZN | |

# Patentlər



**İxtiralar, faydalı modellər və sənaye nümunələri nə üçün qorunmalıdır?**

Patentlər texnologiyanın bütün sahələrində elmi tədqiqatlar və tərəqqi üçün mükafat və təşviqat vasitələri sayılır. Onlar texniki innovasiya üçün əlverişli zəmin yaratmaqla bərabər, texniki biliklərin inkişafına və yayılmasına da öz töhfəsini verir. Patentlər müəssisənin innovasiya sahəsindəki qüdrətinin sübutu sayılır və güclü rəqabət mövcud olan bazarlarda üstünlük əldə etmək üçün ehtiyatla istifadə edilə bilər.
Azərbaycanda patentlər ixtiralar, sənaye nümunələri və faydalı modellər üçün verilir.

**Praktiki üstünlüklər hansılardır?**

Patent onun sahibinə xüsusi icazə olmadan patentdə təsvir edilən ixtiradan üçüncü şəxslərin kommersiya (məs. istehsal, tətbiq, istifadə, satış, satış üçün təklif və ya idxal) məqsədi ilə istifadə etməsinin qarşısını almaq hüququ verir. Patent sahibi patenti satmaq və ya onu lisenziyalaşdırmaq yolu ilə öz hüquqlarını digər şəxsə ötürə bilər.

**İxtira nədir?**

Hüquqi baxımdan ixtira texnologiyadan istifadə etməklə hər hansı texniki problemi həll etmək üçün bir vasitədir.

**Patentləşdirilə bilməyən obyektlər hansılardır?**

İdeyalar, konsepsiyalar, kəşflər, elmi nəzəriyyələr və riyazi həllər, bədii konstruktiv həll variantlarının nəticələri (sənaye nümunələri), işgüzar metodlar, oyun qaydaları, lotereya sistemləri, tədris metodları və iş planları, informasiyanın təqdim edilməsi metodları, şərti simvollar, qrafik cədvəllər, qaydalar, diaqnostika prosedurları, terapiya və cərrahiyyə prosedurları (insanlar və ya heyvanlara münasibətdə istifadə edilməsindən asılı olmayaraq), bitki növləri, heyvan cinsləri və əsasən bitki

və ya heyvanları çoxaltmaq üçün istifadə edilən bioloji əsaslı prosedurlar patentləşdirilə bilməz. Nəhayət, istifadə edilən zaman ictimai qayda-qanuna və ya mənəviyyata zidd olan hər hansı ixtira, misal üçün, müəyyən biotexnoloji ixtiralar patentləşdirilə bilməz.

Estetik ixtiralar öz təyinatına görə texnoloji həll variantları sayılmır və müəlliflik hüquqları altında müdafiə oluna bilər. Bu baxımdan kompüter proqramları müəlliflik hüquqları altında qorunur; belə ki, kompüter proqramına əsaslanan ixtiralar (məs. elektron idarəetmə sükanı) patentləşdirilə bilər.



**Mühafizə üçün tələblər**

İxtiraların patentləşdirilə bilməsi üçün üç tələb yerinə yetirilməlidir:

**Yenilik:** İxtira yalnız o zaman yeni sayılır ki, o artıq məlum olan texnika səviyyəsindən məlum deyil. Dünyanın istənilən nöqtəsində, hər hansı formada ictimaiyyətin istifadəsinə verilmiş istənilən ixtira bilikləri, patent üçün ərizə qeydə alınandan əvvəl prototip hesab edilir. İxtiraya patent almaq üçün ərizə qeydə alınandan əvvəl dünyanın istənilən nöqtəsində, hər hansı formada ictimaiyyətə müyəssər olan biliklər mövcud bilgilər məcmusu hesab edilir.

**Sənayedə tətbiq edilən:** İxtira sənaye baxımından tətbiq oluna bilən, işə salınması mümkün və təkrar istehsala yararlı olmalıdır.

**İxtira səviyyəsi:** İxtira müasir elm və texnikadan aşkar şəkildə çıxarılmamalıdır. İxtiraçılıq səviyyəsinin xüsusiyyətləri həll variantının sadə, məhsulun spesifik özəlliklərinin gözlənilməz olması və ya kütləvi fərziyyələrin (məs. “bu alət müəyyən əməliyyatı yerinə yetirə bilməz”) tam əksini sübuta yetirməsidir.

**Qorunma müddəti**

İxtiralar patent almaq üçün ərizə təqdim olunan tarixdən

başlayaraq 20 il ərzində qorunur. Qorunmanın ilkin müddəti 3 ildir, daha sonra illik xidmət haqlarını (“yenilənmə haqları”) ödəmək lazım gələcək.



**Azərbaycan Respublikasında patentin əldə olunması üçün qeydiyyat**

Patentin qeydiyyatı üçün **http://www.azstand.gov.az** internet səhifəsindən anket-ərizənin nümunəsini yükləmək və ya onu birbaşa Patent şöbəsindən əldə edərək doldurmaq müraciət edilməlidir. Ərizəyə ixtira haqqında məlumat, ən azı bir ədəd ixtira formulu və müvafiq təsvirlər daxil edilməlidir. Bütün texniki sənədlər Azərbaycan dilində olmalıdır.

Ərizə Standartlaşdırma, Metrologiya, Patent üzrə Dövlət Komitəsinə təqdim edilməlidir. Patent ərizəsi qeydə alındıqdan sonra 12 ay ərzində rəsmi bülletendə dərc edilir və patent verilikdən sonra sözügedən qurum tərəfindən təkrar dərc edilir.

**İxtira yenidirmi və ixtiraçı öz səviyyəsini göstərirmi?**

Milli patent əldə etmək üçün müraciət edildikdən sonra, Siz öz ixtiranızın yeni və patentləşdirilməyə yararlı olmasını müəyyən etmək üçün axtarışın aparılmasını xahiş edə bilərsiniz. Patent axtarışları haqqında daha ətraflı məlumatı http://www.azstand.gov.az internet səhifəsindən əldə etmək mümkündür.

**Beynəlxalq qeydiyyat**

Digər ölkələrdə patent əldə etmək üçün 2 yol var:

**Azərbaycandakı yerli patent bürosuna idarəsinə bilavasitə ərizə verməklə**

Bilməlisiniz ki, qanunvericilik, ərizə formalları, ekspertiza və mühafizə sənədinin verilməsi prosedurları ölkələr arasında fərqlidir.

**Avrasiya ərizələri**

Avrasiya patenti almaq üçün Patent şöbəsi vasitəsi ilə

Moskvada yerləşən Avrasiya Patent Təşkilatına müraciət edilə bilər. Bir iddia ərizəsi verməklə 9 müxtəlif ölkədə onun mühafizəsini təmin etmək imkanını yaradır. Avrasiya patentləri haqqında daha ətraflı məlumatı **www.eapo.org** vebsaytında əldə etmək mümkündür.

**Beynəlxalq qorunma (PCT ərizələri)**

Cenevrədə yerləşən Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) Patent Kooperasiya haqqında Müqavilə (PCT) əsaslanan çərçivəsində beynəlxalq patent ərizələrinin işlənməsi verilməsi mümkündür. "PCT" ərizəsi ilə hər hansı ixtira razıllaşmaya PCT-yə üzv olan 141-ə qədər dövlətin ərazisində verilməsi mümkündür. Azərbaycanda patentlərin qeydiyyatına dair ətraflı məlumatı Patent şöbəsindən əldə etmək olar.



**Bunları yadda saxlayın!**

Əvvəl qeydiyyatdan keç, sonra danış! Ərizə təqdim olunduqdan əvvəl hamıya hər hansı formada artıq bəlli olan ixtira patentləşdirilə bilməz. Üçüncü şəxslər ixtiranı ərizə təqdim olunduqdan sonra inkişaf etdirə bilər.

Patentlər elmi tədqiqat və tikinti-layihə işlərinə etibarlı investisiya qoyuluşlarını təmin edir. Patentləşdirmək hüququnun təqdim edilməsinə əvəz olaraq patentdəki informasiyanın açıqlanması tələb olunur. Bu isə texnoloji inkişaf boyunca müəyyən nəzarətin həyata keçirilməsinə imkan yaradır və öz növbəsində elmi tədqiqata və texnoloji tərəqqiyə öz töhfəsini verən yüksək səviyyəli şəffaflığın yaranmasına səbəb olur.

**Ixtiranı patentləşdirmək üçün ödənişlər** ərizənin tipindən və ya müdafiə üçün təyin edilən ölkələrin sayından asılı deyil. Dəyişən qiymət yalnız patent sənədlərinin tərcüməsində müşahidə olunur; belə ki, beynəlxalq səviyyəli danışıqlar

Patentinin əldə edilməsi üçün) bu yaxınlarda belə xərclərin xeyli azaldılması yollarını artıq axtarıb tapmışdır.

# Sənaye nümunələri

**Sənaye nümunələri nə üçün qorunmalıdır?**

Dizayn (tərtibat) bizim hisslərimizə toxunur, emosiyalarımıza təsir göstərir, bənzərsizlik yaradır və bir şeyi digərindən fərqləndirir. Bu səbəblərə görə dizayn həlledici marketinq amillərindən biri sayılır və dünyada dizayn saxtakarlığı artıq piratçılığın daha üstün tutulan formalarından birinə çevrilmişdir.

**Praktiki üstünlüklər hansılardır?**

Sənaye nümunələrinin mühafizəsi ilə bağlı qanunvericilik digər şəxslərə eyni və ya oxşar sənaye nümunəsindən kommersiya məqsədləri üçün istifadəni qadağan edir. «İstifadə» dedikdə, sənaye nümunəsini istehsal etmək (hazırlamaq), saxlamaq, satış üçün təklif etmək, idxal və ixrac etmək, yaxud bu məqsədlər üçün sadəcə onu əldə etmək başa düşülür.

**Sənaye nümunəsi nədir?**

**"Sənaye nümunəsi"** dedikdə, məhsulun, yaxud onun bir və ya bir neçə hissəsinin zahiri görkəmi başa düşülür. Zahiri görkəmi forması xətlərin, konturların, rənglərin və səthlərin qaydaya salınması və ya istifadə edilən materialla səciyyələndirilir. Başqa sözlə, yalnız obyektin zahiri görkəmi dizayn hüquqları ilə qorunur. Nümunələr bunlardır: mətbəx dəsti və diş fırçaları kimi istehlak malları, lokomotiv və ya istismar qurğuları kimi bədii-konstruktiv həllər, saat siferblatları, parçalar və ya avtomobil şassisinin hissələri kimi bədii həllər.

**Heç bir qorunmanın olmaması**

Qoruna bilməyən sənaye nümunələri bunlardır: müstəsna olaraq hər hansı funksiyanın texniki gerçəkləşdirilməsinin nəticəsi (məs. vint üzərindəki yivlər) və ya milli qanunvericiliyə (məs. orden və medalların müdafiəsi), milli razılaşmaya, dövlət siyasətinə və ya mənəviyyata zidd olanlar.

Mühafizəyə həmçinin birmənalı şəkildə istehsalat metodları (məs. geyim mallarının istehsalının spesifik yolu), əməli (tətbiqi) məqsədlər (məs. məntiqi blok-sxem və ya istehsalat prosesi

kimi) və texniki funksiyalar daxil deyil. Bunlar ixtiralar kimi mühafizə olunur.

**Qorunmanın müddəti**

Sənaye nümunəsi maksimum 10 il müddətinə qoruna oluna bilər. Bu müddət sənaye nümunəsinin qeydiyyatı üçün ərizənin Standartlaşdırma, Metrologiya, Patent üzrə Dövlət Komitəsində rəsmi qeydiyyata alındığı gündən başlayır.



**Mühafizə üçün tələbləri**

Yaradılan sənaye nümunələri yalnız aşağıdakı hallarda qoruna oluna bilər:

- Sənaye nümunəsi yeni olduqda. **"Yeni"** dedikdə, heç bir oxşar bədii ya bədii-konstruktiv həllinin ərizənin depozit kimi qeydə alınmasından əvvəl dərc edilməməsi nəzərdə tutulur.
- Sənayə nümunası orijinal olduqda. **"Orijinal"** dedikdə sənaye nümunəsi digər sənaye nümunəsi fərqli vacib xüsusiyyətlərə malik olması başa düşülür.
- Sənayedə tətbiq edilə bilən olduqda. **"Sənaye baxımından tətbiq edilə bilən"** dedikdə, məhsulun təkrar istehsal oluna bilməsi nəzərdə tutulur.
- Maraqların ziddiyyət təşkil etdiyi hallarda, məhkəmə ziddiyyətə səbəb olan amillərə dair düzgün qərar çıxarmağa borcludur.

**İxtiranı patentləşdirmək üçün ödənişlər** ərizənin tipindən və ya müdafiə üçün təyin edilən ölkələrin sayından asılı deyil. Dəyişən qiymət yalnız patent sənədlərinin tərcüməsində müşahidə olunur; belə ki, beynəlxalq səviyyəli danışıqlar (məs. "PCT" (qeyd: Patent Kooperasiya haqqında Müqavilə) Patentinin əldə edilməsi üçün) bu yaxınlarda belə xərclərin xeyli azaldılması yollarını artıq axtarıb tapmışdır.

# Faydalı model



**Faydalı model nədir?**

**"Faydalı model"**in hüquqi tərifi istehsal vasitələri, istehlak malları və ya onların komponentlərinin (əgər onların funksional xüsusiyyətləri faydalıdırsa və ya praktik üstünlükləri vermək üçün nəzərdə tutulmuşdursa) konstruktiv həll variantı mənasını kəsb edir. Faydalı model ixtiraya bənzərdir, lakin faydalı modelə qoyulan tələblər ixtiraya münasibətdə daha yumşaqdır. Bu səbəbdən faydalı modelə bəzən "xırda ixtira" və ya "innovativ patent" deyilir

**Faydalı modelin üstünlükləri hansılardır?**

Faydalı modelin praktiki üstünlüklərini əl ilə görülən işlərin yüngülləşdirilməsi, sanitar-gigiyenik və ya psixofiziki iş şəraitlərinin yaxşılaşdırılması, vaxta qənaət edilməsi və s. kimi işlərdə görmək olar.

Faydalı modelin qorunma müddəti 10 il təşkil edir, yəni faydalı modelin istifadəyə başlandığı tarixdən etibarən 10 il ərzində faydalı modeldən istifadə üçün hüquq sahibinin razılığı tələb olunur. **"İstifadə"** dedikdə, patentləşdirilmiş faydalı modelin istifadə olunduğu istənilən məhsulu bazara çıxarmaq, habelə patent ilə qorunan tətbiqi prosesin istifadəsi başa düşülür.

**Faydalı model nə üçün mühafizə edilməlidir?**

İxtiraçının hüquqların adına təsdiq olunması və faydalı modelin digər üstünlüklərindən yararlanmaq üçün faydalı modelin qeydiyyata alınması zəruridir.

**Heç bir müdafiənin olmaması**

Dövlətin maraqlarına, insanlığa və ya mənəviyyata zidd olan faydalı modellərə hüquqi qorunma şamil edilmir. Həmçinin birmənalı şəkildə proseslər, maddələr (cisimlər), mikroorqanizm ştammları **(xəstələnmiş heyvan ya insan**

**orqanizmindən saf mikroorqanizm kulturu)**, bitki növləri və ya heyvan hüceyrələri, həmçinin elmi nəzəriyyələr, riyazi metodlar, bədii konstruktiv əsərin (layihənin) nəticəsi, təşkilatçılıq metodları, əqli fəaliyyət və işgüzar fəaliyyət və müəyyən oyunları oynamaq üçün qaydalar və metodlar, alqoritmlər və kompyuterlər üçün proqramlar, informasiyanın təqdim edilməsi metodları, simvollar, cədvəllər (qrafiklər) və qaydalar, torpaq meliorasiyası, bitki müxtəlifliyi və heyvan cinsləri, xəstəliklərin diaqnostikası üçün metodlar, insanların və ya heyvan orqanizmlərinin terapiya və cərrahiyyə metodları və s. daxil olmaqla onlarda yeni məqsədlər üçün istifadə edilməsi nəzərdə tutulan faydalı modellər qorunmur.



**Qorunmanın tələbləri**

Faydalı modellər aşağıdakı hallarda qoruna bilər:

Faydalı model yeni olduqda. **"Yeni"** dedikdə, heç bir oxşar faydalı modelin ərizənin qeydə alınmasından əvvəl nəşr edilməməsi və mövcud olan məlumatda onun əhəmiyyətli xüsusiyyətlərinin naməlum olaraq qalması nəzərdə tutulur.

Sənayedə tətbiq oluna bilən olduqda. **"Sənaye baxımından tətbiq edilə bilən"** dedikdə, məhsulun təkrar istehsalı və onun sənaye, habelə iqtisadiyyatın hər hansı sahəsində istifadə oluna bilməsi nəzərdə tutulur.

**Beynəlxalq Qeydiyyat: Madrid Sistemi**

Bu prosedur Azərbaycan Respublikasının "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanununa əsasən sahibkarlara Madrid Sazişi və Madrid Protokolu adlandıran beynəlxalq sazişlərə tərəf olan ölkələrdə və ya təşkilatlarda əmtəə nişanının qeydiyyatına imkan verir. Mühafizənin başqa ölkələrə genişləndirilməsi Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi vasitəsilə edilə bilər.

# Əmtəə nişanı, Texnologiya və Patent Axtarışları



**ƏM Reyestrləri ilkin informasiya mənbəyi sayılır**

Əqli mülkiyyət hüquqlarının reyestrləri külli miqdarda informasiyaların daxil edildiyi nəhəng məlumat bazaları sayılır. Dünyanın texniki informasiyalarının təxminən 80%-nin toplandığı 74 milyondan yuxarı patent sənədlərini bir araya gətirir və hər hansı informasiya məlumat axtarış sistemlərindən istifadə etməklə çıxarıla və tərcümə edilə bilər, bu isə onu kommersiya, marketinq və hüquqi məsələlərdə strateji qərarın qəbul edilməsi üçün qiyməti olmayan və çox dəyərli bir resursa çevirir.

Azərbaycanda əmtəə nişanı və patent axtarışları qeydiyyata alına obyektlərə dair hüquqların pozulması faktını müəyyən edə bilər. Azərbaycanda həmçinin patent ərizələrini yoxlamaq (qabaqçıl texnika səviyyəsinin məcburi olmayaraq tədqiq edilməsi tələbinə baxmayaraq) və ya əmtəə nişanını qeydiyyatdan keçirmək üçün prosedurlar mövcuddur.

Məhdud (dar) təyinatlı axtarışlar (məs. müəyyən məhsul istehsalı sektorunda qeydə alınmış əmtəə nişanlarının cari vəziyyətinin öyrənilməsi üçün) çıxılmaz vəziyyətə salmadan və yüksək keyfiyyətli məmulatın saxtalaşdırılmasından uzaqlaşdırmaqla elmi tədqiqat, layihə-tikinti işləri və ya dizayn yaradıcılığındakı iş proseslərini yüngülləşdirə bilər.

Axtarışlar həmçinin rəqabətə və ya müəyyən sektora nəzarət və ya onun analiz edilməsi, habelə tendensiyaların müəyyən edilməsində özünü göstərir.

# Əmtəə nişanları və coğrafi göstəricilər

**Əmtəə nişanları nə üçün qorunmalıdır?**

Hər hansı əmtəə nişanı əmtəə və ya xidmətin identifikasiya olunmasında bilavasitə rol oynayan əsas elementdir. Bu səbəbdən, əmtəə nişanı qiymətli kapital sayılır və onun bazarda

tanınmasının formalaşdırılması və daha sonra onun qorunub saxlanılması üçün külli miqdarda pul və vaxt sərf olunur.

**Praktik üstünlüklər hansılardır?**

Əmtəə nişanının mühafizəsi əmtəə nişanının sahibinə əmtəə və ya xidmətləri identifikasiya etmək üçün xüsusi nişandan istifadə etmək və başqalarının ixtiyarına vermək (misal üçün lisenziya vermək yolu) kimi müstəsna hüquq verir. Əmtəə nişanının sahibi öz məhsulunun qarışıq düşmə ehtimalı olduğundan digər şəxslərə eyni və oxşar əçtəə və ya xidmətlərə eyni və ya oxşar nişanların verilməsini qadağan edə bilər.



**Əmtəə nişanı nədir?**

Hüquqi dildə desək, sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşması əmtəə nişanı sayılır. Əmtəə nişanları çox geniş və müxtəlif ola bilər.

**Əmtəə nişanlarının formaları**

Əmtəə nişanları söz (məs. “Kral”), şəxsi ad (məs. “Jalə”), hərf (məs. “Ya” (Я) ), rəqəm (məs. “33”), təsviri elementlər, məhsulların və ya onların qablaşdırmalarının formasında qeydiyyata alına bilər, həmçinin, rənglərin kombinasiyası və ya belə işarələrin (məs. “7 gözəl”) istənilən kombinasiyası mühafizə oluna bilər.

**Əmtəə nişanlarının növləri**

Ayrı-ayrı şirkətlərin bir əmtəə və ya xidmətinə fərdi əmtəə nişanı şamil edilir.

Şirkətin (və ya onun əmtəə və ya xidmətlərinin) hüquqi aidiyyatının digər təşkilatda olduğunu göstərən kollektiv əmtəə nişanları (məs. Əczaçılar Assosiasiyası).

**Əmtəə nişanlarının xüsusi növləri**

Tanınmış əmtəə nişanları: Təsviri əlamətlər kütlə tərəfindən müəyyən şirkətin (məsələn, "AZEL") məhsul və ya xidmətləri ümumilikdə əmtəə nişanı kimi qəbul edildiyi zaman qoruna bilər.

İctimai mülkiyyət: Əmtəə nişanları illərlə bazarda mövcud olması səbəbindən öz adını mühafizə olunmayan (hamının adi qaydada istifadə etdiyi) ümumi ada dəyişə bilər və bu nişanın öz mühafizə səviyyəsini itirməsi ilə nəticələnə bilər (buna misal olaraq fotosurəti çıxarmaq üçün cihazın adının - "xerox" sözünün Azərbaycan dilində "kseroks" adını almasını göstərmək olar).

Geniş tanınmış əmtəə nişanları: "Ferrari", "Coca-Cola" və ya "Cartier" kimi tanınmış əmtəə nişanları, hətta onlar üçün qeydiyyata alınmamış əmtəə və xidmətlərin siniflərinin belə üçüncü şəxslər tərəfindən istismar edilməsinə qarşı müdafiə olunur ki, sözügedən şirkətlər Azərbaycanda geniş tanınmış əmtəə nişanları kimi qəbul edilir.

İnternet domen adları: Azərbaycanda ".az" kodları üçün domen adlarının təyin edilməsi və qeydə alınması ilə Network Technologies (www.nt.az) və Extra Web (www.extraweb.az) məşğul olur. Domen adları həmçinin adi şərtlər altında əmtəə nişanları kimi qeydə alına bilər.

Məhsulun mənşəyinin göstərilməsi: Müəyyən məhsul və ya xidmətləri başqalarından istehsalçı ilə deyil, coğrafi mənşə ilə də fərqləndirilirlər. Birbaşa mənşə (məsələn, "Azərbaycan xalçası"), dolayı mənşə (məsələn, "Azərilmə") və coğrafi adlar mənşəyi (məs. "Badamlı" mineral suyu) arasında fərq var.

## Heç bir müdafiənin olmaması

İctimai mülkiyyətə mənsub olan işarələr inhisarlaşdırıla bilməz; misal üçün, əlifbanın və ya rəqəmlərin bir simvoldan ibarət hərfləri kimi işarələr onlar kütlə tərəfindən əmtəə nişanları, hər hansı bir mənanı kəsb edən ixtisarlar və təsviri loqotiplər (məs. "4x4", "AGS") kimi fərqlənmək üçün xüsusi üstünlük əldə etməmişdirlər.

Milli və beynəlxalq orden və medallardan yalnız bu orden və medallardan identifikasiya məqsədi ilə istifadə edən hökumət orqanı ilə bilavasitə bağlılığı olan müəssisələr tərəfindən əmtəə nişanları kimi istifadə edə bilər.

Bir qayda olaraq, ayrı-ayrı rənglər müdafiə oluna bilməz. İstisnalar tələb olunan məhsul və ya xidmətlər üçün əmtəə nişanı kimi qəbul edilmiş rənglərdir

**Coğrafi göstəricilər nədir?**

Əmtəənin mənşəcə dövlətin və ya bölgənin ərazisi ilə, yaxud bu ərazidəki yerlə bağlı olduğunu bildirməsi, onun xüsusi keyfiyyətini, şöhrətini və başqa xüsusiyyətlərini əks etdirməsi coğrafi göstərici sayılır.



**Mühafizənin müddəti**

Əmtəə nişanı və coğrafi göstərici ərizə verildiyi tarixdən etibarən 10 il ərzində qorunur və bu müddət ərzində sonsuz olaraq eyni zamanda ayrı-ayrı on illik müddətlərə yenilənə bilər.

**Azərbaycan Respublikasında əmtəə nişanlarının qeydiyyatı**

Əmtəə nişanının və coğrafi göstəricinin mühafizəsi və qeydiyyatı üçün müraciət edilməlidir. Doldurulmuş ərizə, müdafiə üçün tələb edilən malların və xidmətlərin təsnifatları və əmtəə nişanının keyfiyyətli nümunəsi ilə birlikdə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə təqdim edilməlidir. Ərizələri **www.azstand.gov.az** vebsaytından yükləmək mümkündür.

**Mühafizə üçün tələblər**

Ümumiyyətlə, qanuna müvafiq olaraq istənilən qrafik şəkildə təmsil edilən simvol və ya işarə fərqləndirmə qabiliyyətinə malikdirsə, əmtəə nişanı sayıla bilər.

Əmtəə nişanı təsviri olmamalıdır: yəni materialın növü, keyfiyyəti, tipi, istehsal olunduğu yeri və ya onun məqsədi və ya qiyməti barədə heç bir əlamətləri özündə əks etdirməməlidir. (Nümunə: “NAR” adı telekommunikasiya vasitələri biznesi üçün əmtəə nişanı kimi qeydə alına bilindiyi halda nar və ya hər hansı meyvə üçün əmtəə nişanı kimi istifadə edilə bilməz).

Əmtəə nişanı dövlət siyasətinə və ya mənəviyyata zidd olmamalıdır. Başqa sözlə, əmtəə nişanı adət və ənənələri, mənəviyyatı, dini dəyərləri və ya milli azlıqların mədəni hisslərini təhqir etməməli və diplomatik və ya beynəlxalq əlaqələrə təsir göstərməməlidir.

## Sənaye mülkiyyəti hüquqlarına baxış



| | |
|---|---|
| Nə qorunmalıdır? | **Əmtəə nişanı**<br>Üçüncü tərəflərin qanunsuz istifadəsinin qarşısını almaq üçün qeydiyyata alınmış işarələr |
| **Hansı yolla qorunmalıdır?** | Əmtəə nişanlarının reyestrində qeydiyyata alınmalıdır |
| **Minimum tələblər** | ● Digər hüquqlara müdaxilə etməməlidir<br>● Fərqli olmalıdır<br>● Təsviri olmamalıdır<br>● Dövlət siyasətinə və ya mənəviyyata zidd olmamalıdır |
| **Heç bir qorunma yoxdur** | ● İxtisarlar<br>● Obyekt adları<br>● Orden və medallar və s. |

| **İxtira**<br>İxtiralar, məs. texniki problemlər üçün yeni texniki həll variantları | **Faydalı Model**<br>Məişət avadanlıqları, cihazlar, məs. cihaz ilə əlaqəli olan texniki həll variantları | **Sənaye nümunəsi**<br>Zahiri görkəmi məs. məhsulun xarici görünüşü |
| --- | --- | --- |
| Patentin təqdim olunması tələbləri | Patentin təqdim olunması tələbləri | Sənaye nümunələrinin reyestrində qey-diyyat |
| ● Yenilik<br>● Sənayedə tətbiq olunması<br>● İxtiraçılıq səviyyəsi İxtiranın mahiyyətinin açıqlanması | ● Yenilik<br>● Sənayedə tətbiq olunması | ● Yeni<br>● Orijinal olunması<br>● Sənayedə tətbiq edilən<br>● Dövlət siyasətinə və ya mənəviyyata zidd olmamalıdır |
| Elmi nəzəriyyələr<br>● Riyazi metodlar<br>● Bədii kon-struktorluq işinin nəticəsi<br>● Təsərrüfatın və əqli fəaliyyətin təşkili<br>● Oyunların qaydaları və metodları<br>● Kompüter alqoritmləri və proqramları | ● Proseslərə<br>● Maddələrə (cisimlər)<br>● Mikroorqanizm ştammları Bitki kulturaları və ya heyvan hüceyrələri, onların yeni məqsədlər üçün istifadə edilməsinə | ● Sırf texniki funksiyalara<br>● İdeya və kon-sepsiyalara<br>● Mövcud qanunvericiliyə və razılaşmalara zidd olanlara |

| Nə qorunmalıdır? | **Əmtəə nişanı** |
|---|---|
| | |
| **İstisnalar hansılardır?** | Yalnız fərdi istifadə üçün |
| **Qorunmanın həcmi** | İşarə, habelə əmtəə və xidmətlərin sinifləri ilə müəyyən edilir |

| İxtira | Faydalı Model | Sənaye Nümunəsi |
|---|---|---|
| ● İnformasiyanın təqdimi üsullar ● Şərti işarələr, cədvəllər və qaydalar ● Qurğu, bina, ərazi layihələri və planlaşdırma sxemləri ● İnteqral mikrosxemlərin topologiyası ● Heyvan cinsləri, bitki müxtəlifliyi ● Diaqno-tika prosedurları, insanlar və ya heyvanlar üzərində terapiya və ya cərrahiyyə prosedurları • İctimai qayda-qanunlara və mənəviyyata zidd olanlara Müəyyən biotexnoloji ixti-ralara | | |
| Fərdi istifadə, elmi tədqiqat, maarifləndirmə | Fərdi istifadə | Fərdi istifadə |
| Patent formullarında müəyyən edilir | Patent formullarında müəyyən edilir | Mühüm əlamətlərin məcmusu ilə müəyyən edilir |

| Nə qorunmalıdır? | **Əmtəə nişanı** |
|---|---|
| **Qorunmanın müddəti** | 10 il<br>(hər biri üçün növbəti 10 ilə yenilənə bilər) |
| **Qorunmanın göstəriciləri** | • ® qeydiyyata alınmış əmtəə nişanı<br>İstifadə mütləq deyil<br>Pozuntu qanunla cəzalandırılır |
| **Qeydiyyat rüsumları* (AZN)** | Qeydiyyat – 10 AZN (ilkin ekspertiza)+50 AZN (ətraflı ekspertizası) |
| **Yenilənmə / xidmət haqları * (AZN)** | Yenilənmə<br>95 AZN 10 illik |
| **Yalnız Azərbaycan üçün** | Axtarış tövsiyə edilir |

| İxtira | Faydalı Model | Sənaye Nümunəsi |
|---|---|---|
| 20 il | 10 il | 10 il |
| | | |
| İlkin ödəniş 10 AZN | İlkin ödəniş 10 AZN | İlkin ödəniş 10 AZN |
| İxtira üçün patent ərizəsinin qeydiyyatından başlayaraq ikinci il keçdikdən sonra, ərizəçi illik xidmət haqqını üçün ödəməyə məcburdur: 3-dən 10 ilə qədər 5 AZN, hər sonrakı il üçün eskalasiya (yüksəlmə) haqqı 3 AZN;<br>10-dan 20 ilə qədər, 40 AZN, hər sonrakı il üçün eskalasiya (yüksəlmə) haqqı 4 AZN. | Faydalı model üçün patent ərizəsinin qeydiyyatından başlayaraq ikinci il keçdikdən sonra,<br>ərizəçi illik xidmət haqqını üçün ödəməyə məcburdur:<br>3-dən 10 ilə qədər 5 AZN, hər sonrakı il üçün eskalasiya (yüksəlmə) haqqı 3 AZN. | Sənaye nümunəsi üçün patent ərizəsinin qeydiyyatından başlayaraq ikinci il keçdikdən sonra, ərizəçi illik xidmət haqqını üçün ödəməyə məcburdur:<br>3-dən 10 ilə qədər 5 manat, hər sonrakı il üçün eskalasiya (yüksəlmə) haqqı 3 manat. |
| Axtarış tövsiyə edilir | Axtarış tövsiyə edilir | Publikasiya dövrü-6 ay ərzində |

* Bu məbləğə hər hansı patent müvəkkilin xidmətlərinə görə ödənilməli qonorar daxil deyil.

# Qeyri-ənənəvi əqli mülkiyyət

**“Qeyri-ənənəvi əqli mülkiyyət”** dedikdə xüsusi qorunma hüquqları ilə qorunan inteqral sxem topologiyaları, xüsusi qorunma hüququ ilə qorunan məlumat toplusu və folklor nümunələri başa düşülür. Azərbaycanda əqli mülkiyyətin bu sahəsi üzrə qanunvericiliyin inzibati idarəçiliyi Müəllif Hüquqları Agentliyi tərəfindən həyata keçirilir.



**Inteqral sxem topologiyaları**

“İnteqral sxem” dedikdə altlığın səthində və (və ya) həcmində bir-birindən ayrılmaz şəkildə hazırlanmış elementlər və elementlərarası əlaqələrdən ibarət olub müəyyən elektron sxem funksiyasını tam və ya qismən yerinə yetirən elektron məmulat başa düşülür. Inteqral sxem elementlərinin və elementlərarası əlaqələr məcmusunun altlıqda əks olunmuş fəzavi-həndəsi yerləşdirilməsi isə **inteqral sxemin topologiyası adlandırılır.**

Hüquqi qorunma yalnız orijinal topologiyalara şamil olunur.

Topologiyadan istifadəyə müstəsna hüquqlar 10 il müddətində qüvvədə qalır və onun müəllifi, yaxud hüquq sahibi qorunma müddəti bitməmiş topologiyanı Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində könüllü olaraq dövlət qeydiyyatından keçirə bilərlər.

Azərbaycanda “İnteqral sxem topologiyasının hüquqi qorunması haqqında” Qanun 31 may 2002-ci ildə qəbul edilmişdir

**Xüsusi qorunma hüququ ilə qorunan məlumat toplusu**

**“Məlumat toplusu”** anlayışına nə daxildir?

“Məlumat toplularının hüquqi qorunması haqqında” Qanunun 1-ci maddəsinə uyğun olaraq, “məlumat toplusu” dedikdə sistemli və ya metodik qaydada tərtib edilmiş və elektron, yaxud digər vasitələrlə əldə oluna bilən əsərlərin, verilənlərin və digər materialların təqdiminin obyektiv forması başa düşülür.

**Məlumat toplusunun ikili qorunması mövcuddur: məlumatların seçilməsinə və düzülməsinə görə yaradıcılıq fəaliyyətinin nəticəsi olan məlumat toplusu müəlliflik hüququ ilə qorunur. Yaradıcılıq əlaməti olmayan və məzmununun hazırlanması, yoxlanması və tərtib edilməsi böyük sərmayə qoyuluşu tələb edən məlumat toplusu xüsusi qorunma hüququ ilə qorunur. Başqa sözlə, məlumat toplusunun xüsusi qorunma hüququ ilə qorunma meyarı kimi maliyyə vəsaitləri, vaxt və enerji məsrəfləri şəklində əhəmiyyətli sərmayə qoyuluşu nəzərdə tutulur. Bu zaman toplunun yeniliyi mütləq deyildir.**

**Xidməti məlumat toplusundan istifadəyə müstəsna hüquq, aralarındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, müəllifin əmək münasibətlərində olduğu şəxsə (işəgötürənə) məxsusdur.**

Müəlliflik hüququnun obyekti olan məlumat toplusuna əmlak hüquqlarının kimə məxsus olmasından asılı olmayaraq şəxsi (qeyri-əmlak) hüquqlar yalnız müəllifə məxsusdur.

Məlumat toplusuna, o cümlədən xüsusi qorunma hüququ ilə qorunan məlumat toplusuna müstəsna hüquq sahibi (sahibləri) və ya istehsalçısı (istehsalçıları) hüquqların qüvvədə olduğu müddətdə onu (tərkibində dövlət sirrinə aid informasiyalar saxlayan məlumat toplusu istisna olmaqla) Müəllif Hüquqları Agentliyində rəsmi qeydiyyatdan keçirə bilərlər. Rəsmi qeydiyyatdan keçirilmiş məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada, müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçirilməlidir.

## Azərbaycan folkloru nümunələri

Söz sənəti nümunələri, xalq musiqisi, xalq oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olan və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri folklor nümunələri sayılır. Folklor nümunələri ənənəyə əsaslanan əqli yaradıcılıq fəaliyyətinin nəticəsidir

və nəsildən-nəsilə ötürülərək qorunub saxlanılan yaradıcılıq nümunələri kimi qorunub saxlanılır. Folklor nümunələrindən istifadə sərbəstdir, lakin istifadə zamanı onların təbii mahiyyəti dəyişdirilməməli və məzmununa xələl gətirilməməlidir.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və YUNESKO uzun müddətdir ki, folklorun qorunub saxlanması məsələləri ilə bağlı müzakirələr aparır, milli təcrübələri ümumiləşdirir və folklor nümunələrinin qorunmasını təmin edəcək beynəlxalq alətin yaradılmasına çalışırlar. YUNESKO diqqəti folklorun müəyyən edilməsinə, eyniləşdirilməsinə, sənədləşdirilməsinə, yayılmasına və s. məsələlərə yönəldir. 1989-cu ildə YUNESKO-nun qəbul etdiyi «Folklorun qorunmasına aid tövsiyələr»də folklorun təsnifatı və qorunub saxlanmasının əsas istiqamətləri göstərilmiş və bu sənəddə yuxarıda göstərdiyimiz məsələlər əsas yeri tutmuşdur.

ÜƏMT isə mədəni irsin obyektlərinə əqli mülkiyyət növü kimi status verilməklə hüquqi qorunmasının təmin edilməsi üçün hüquqi məkanın və mexanizmin (hüquqi qorunma aləti) yaradılmasını rəhbər tutur. ÜƏMT hələ Stokholmda keçirilən Diplomatik Konfransda «Ədəbi və bədii əsərlərin qorunması haqqında» Bern Konvensiyasının 15(4) maddəsində dəyişiklik apararaq, müəllif əsərləri ilə bərabər folklor əsərlərinin qorunması üçün müəyyən şərait yaratmışdı. 1982-ci ildə ildə ÜƏMT-nin təklif etdiyi «Folklorun qeyri-qanuni istifadəsi ilə bağlı» nümunəvi model və 1985-ci ildə YUNESKO ilə birgə hazırladığı «Folklorun qeyri-qanuni istifadədən və digər zərərli hərəkətlərdən qorunması»na dair milli qanunvericiliklər üçün nümunəvi müddəaları bu sahədə irəliyə doğru atılmış mühüm addımlar kimi qiymətləndirmək olar.

1992-ci ildən etibarən mütəxəssislər belə qənaətə gəldilər ki, müəlliflik hüququ ilə folklorun hüquqi qorunmasını təmin etmək mümkün olmur və xüsusi qorunmaya («sui-generis») ehtiyac vardır. Bu mövqe YUNESKO və ÜƏMT tərəfindən müdafiə olundu. Hətta ÜƏMT-nin genetik resurslar, ənənəvi biliklər və folklor üzrə xüsusi daimi Hökumətlərarası Komitəsi

yaradıldı. 2001-2009-cu illərdə folklorun hüquqi qorunması ilə bağlı bir sıra xüsusi ekspert iclasları keçirildi və nəticədə «Folklorun hüquqi qorunması haqqında» təkmilləşdirilmiş milli qanunvericilik modeli hazırlandı, yeni Beynəlxalq Konvensiyanın mətni müzakirəyə çıxarıldı. Bununla yanaşı, YUNESKO-nun son illərdə qeyri maddi mədəni irsin qorunub saxlanması üzrə (folklor nümunələri daxil olmaqla) keçirdiyi müzakirələrdə verilən tövsiyələr də milli və beynəlxalq səviyyədə qanunvericiliyə öz təsirini göstərmişdir. Aparılan müzakirələrin nəticələri zəngin folklor ənənələrinə malik olan Azərbaycan üçün də dərin əhəmiyyətə malikdir. Bununla yanaşı qeyd etməliyik ki, 2003-cü ildə Şərqi Avropa və MDB məkanında ilk dəfə olaraq Azərbaycanda Folklor nümunələrinin hüquqi qorunması haqqında Qanun qəbul edilmişdir.

Azərbaycan folklor nümunələrindən istifadə qaydaları pozulduqda Müəllif Hüquqları Agentliyi tərəfindən iddia qaldırıla bilər.

# Əlaqə

## Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya, Patent üzrə Dövlət Komitəsi

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi Azərbaycanda bütün sənaye mülkiyyəti hüquqları üçün, habelə prosedurdan asılı olaraq, beynəlxalq qeydiyyatlar üçün də mərkəzi qurum sayılır. Sözügedən qurum milli ərizələri nəzərdən keçirir, hüquqlarını qeydiyyata alır və müxtəlif reyestrlərin idarə olunmasını həyata keçirir.

**Telefon:** (+99412) 4499959
(+99412) 4498489
**Faks:** (+99412) 4405224
**Ünvan:** Bakı AZ1147, Mərdanov qardasları kuc., 124
**Elektron poçt:** AZS@azstand.gov.az
**Vebsayt:** http://www.azstand.gov.az

## Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi

Azərbaycanda müəlliflik hüququ, əlaqəli hüquqlar, inteqral sxem topologiyaları, məlumat topluları və folklor nümunələrinə olan əqli mülkiyyət hüquqları ilə bağlı istənilən suala cavab almaq üçün Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinə müraciət edə bilərsiniz. Agentlik qeyd edilən sahələr üzrə dövlət siyasətini həyata keçirir, normativ-hüquqi tənzimlənməni təmin edir və fəaliyyəti əlaqələndirir.

**Tel:** (+99412) 4981029
(+99412) 4933944
(+99412) 4982232
Faks: (+99412) 4981028
**Ünvan:** Bakı AZ1000, Ü. Hacıbəyov küçəsi, 40. Hökumət Evi, 5-ci giriş, 1-ci mərtəbə
**Elektron poçt:** copag@copag. qov.az
**Vebsayt:** http://www.copag.gov.az

## İsveçrənin Iqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO)

Iqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) İşveçrə İqtisadiyyat Nazirliyinin bir hissəsidir. Onun Xarici İqtisadi Direktorluğu İşveçrə dövlətinin iştirak etdiyi əməkdaşlıq layihələrinin icrası və əlaqədələndirilməsi baxımından SDC-in tərəfdaşıdır. Onu səlahiyyət çərçivəsinə bazar iqtisadiyyatı əsaslı dövlətlərə, icra yönümlü tənzimləyici və iqtisadi siyasətə dəstək verməklə, keçid dövrü yaşayan və inkişaf etməkdə olan dövlətlərin dünya iqtisadiyyatına inteqrasiyasını surətləndirməklə davamlı iqtisadi inkişafa və yoxsulluğun azadılmasına dəstək verilməsi daxildir.

Bretton Vuds İnstitutunda İsveçrə İcmasının bir üzvü kimi Azərbaycan SECO-nun maliyyə əməkdaşlığı layihələri üçün çox vacib bir ölkədir.

**Tel:** (+994 12) 4373855
**Fax:** (+994 12) 4373856
**Ünvan:** Bakı AZ 1004, İçəri Şəhər, 9 Böyük Qala küç.
**Elektron poçt:** baku@sdc.net **Vebsayt:** www.swisscoop.org



## İsveçrənin Əqli Mülkiyyət Hüquqları üzrə Federal İnstitut

Bern-dəki Əqli Mülkiyyət üzrə Federal İnstitut əqli mülkiyyət hüquqları üzrə bütün məsələlərlə əlaqədar federal orqandır. Bu orqan eyni zamanda İsveçrədə bütün sənaye mülkiyyəti hüquqları üçün, proseduradan asılı olaraq eyni zamanda beynəlxalq qeydiyyatlar üçün də mərkəzdir (həmçinin Lixtenşteyndə patent üçün). İnstitut müvafiq dövlətlərdən göndərilən ərizələri nəzərdən keçirir, müdafiə hüquqlarını təyin edir və müxtəlif reyestrləri idarə edir. Əqli mülkiyyət hüquqları üzrə məlumat almaq üçün aşağıda qeyd edilən əlaqə vasitələri ilə müraciət edə bilərsiz:

**Tel:** + 41 (0) 31 3777777
**Fax:** + 41 (0) 31 3777778
**Ünvan:** Stauffachestrestrasse 65/59 g CH-3003 Bern
**Elektron poçt:** info@ipi.ch **Vebsayt**: www.ipi.ch